UOT 37.

***Nübar Əhmədəli qızı İsazadə***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin laborantı*

## XIX ƏSRİN SONU VƏ XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN MAARİFÇİLƏRİNİN QADIN TƏHSİLİ VƏ AZADLIĞI UĞRUNDA MÜBARİZƏSİ

***Нюбар Ахмедали гызы Исазаде***
*лаборант Азербайджанского Государственного Педагогического Университета*

## БОРЬБА АЗЕРБАЙДЖАНСКИХ ПРОСВЕТИТЕЛЕЙ ЗА ОБРАЗОВАНИЕ И СВОБОДУ ЖЕНЩИН В КОНЦЕ XIX - НАЧАЛЕ XX ВЕКА

***Nubar Isazade Ahmedali***
*laboratory assistantof Azerbaijan State Pedagogical University*

## THE STRUGGLE OF AZERBAİJANİ ENLİGHTENERS FOR THE EDUCATİON AND FREEDOM OF WOMEN AT THE END OF THE 9TH AND EARLY 20TH CENTURY

**Xülasə:** Müəllif elmi məqalədə XX əsrin əvvəllərində Azərbaycanın maarifçi ziyalılarının qadınların cahillikdən xilas olmaları ilə bağlı fikirlərini araşdırarkən belə bir qənaətə gəlmişdir ki, qadınlar maariflənməlidir.
***Açar sözləri:*** *qadın azadlığı, qadın təhsili, qadın təhsilinin inkişafı, maarifçilik*

**Резюме:** Автор данной статьи повествует о взглядах азербайджанских просветителей XX века на просвещение и устранение невежества женщин Азербайджана.
***Ключевые слова:*** *свобода женщин, образование женщин, развитие образования, просвещение*

**Summary:** The author considers that in the scientific article, at the beginning of the twentieth century, the intellectual enlightenment of Azerbaijan had been investigating women's ignorance, women should be enlightened.
***Key Words:*** *women's freedom, women's education, women's education, enlightenment*

XX əsrin əvvəllərində Azərbaycanın maarifçi ziyalıları qadınların cahillikdən xilas olmalarını onların maarifləndirilməsində görür, qadın təhsili və azadlığı məsələsini ön plana çəkməklə bu ideyanın reallaşmasına zəmin yaradır.

Maarifçilik dövründə XX əsrin tərəqqipərvər ziyalıları "Kaspi", "Şərqi-Rus", "Həyat", "İrşad", "Açıq söz", "Molla Nəsrəddin", "Dəbistan", "Füyuzat", kimi qəzet və jurnallarda Azərbaycan qadınlarının təhsili və azadlığı ilə bağlı müxtəlif yazılar dərc etdirmişlər. Həmin yazılarda qadın yüksək qiymətləndirilmiş, onların cəmiyyət üçün olduqca mühüm rol oynadıqları əks olunmuşdur.

Həsən bəy Zərdabi gənc nəslin təlim-tərbiyəsi üçün, ilk növbədə, qadınların maarifləndirilməsini zəruri hesab edirdi. Yüksək təhsilli, savadlı və bilikli qadınlar öz uşaqlarında yüksək keyfiyyətlər aşılayır. Beləliklə, cəmiyyətin tərəqqisi qadınların maarifləndirilməsindən başlayır. Həsən bəy Zərdabi qadını gənc nəslin ilk müəllimi adlandırır (1).

Məktəbi, müəllimi, maarifi həyatının bəzəyi, ömrünün qayəsi hesab edən S.M. Qənizadənin yaradıcılığında qadın təhsili və azadlığı problemi əsas yer tutur. S.M. Qənizadə "Məktubati Şeydabəy Şirvani" əsərində qadın mənəviyyatını onun xarici gözəlliyindən üstün tutur, təhsilli və mədəni qadını təqdir edir, onun yüksək əxlaqi keyfiyyətlərini tərənnüm edir.

Maarifçilik dövründə Azərbaycan maarifpərvərləri qadın təhsili və azadlığı məsələlərini daha cəsarətlə irəli sürür, mövcud məktəblərdə qızların da təhsil almalarına çalışır, milli qız məktəblərinin yaradılması fikirlərini irəli sürürdülər (3).

Nəriman Nərimanovun yaradıcılığında qadın təhsili və azadlığı məsələsi ilə bağlı müxtəlif

maraqlı fikirlər öz əksini tapmışdır. N. Nərimanov yazırdı ki, çarşab bizim arvadların zənciridir. Bu zəncir gec-tez qırılmalıdır. N. Nərimanov qadınların çarşabdan xilas olmalarını daha dəhşətli məsələlərdən asılı hesab edirdi ki, bunlar da istismar, zülm və hüquqsuzluq idi. N. Nərimanovun qadın azadlığına dair fikirləri sonralar təkmilləşmiş və daha da inkişaf etmişdir. Əgər əvvəllər N. Nərimanov bu məsələdə islahatçı mövqeyində dururdusa, sonralar o, inqilabçı kimi çıxış etmişdir. "Bahadır və Sona" əsərində qadın təhsili və azadlığı məsələsi özünü aydın şəkildə ifadə edir. Müəllif Bahadırın dili ilə Sonaya müraciət edərək deyir: "Sona, zənnimcə, qadınlar hal-hazırdakı zəncirdən, yəni çarşabdan xilas olmasalar, millət ciddi surətdə tərəqqi yoluna addımlaya bilməyəcəkdir".

N. Nərimanov qadınların təhsilini qadın azadlığının tərkib hissəsi hesab edirdi. O, qadının oxumasını, bilikli olmasını vacib bilir və cəmiyyətin gələcəyinin, taleyinin məhz bu amildən asılı olduğunu göstərirdi. N. Nərimanov qızların təhsilə, elmə, məktəbə cəlb olunmasına, onlar üçün xüsusi qız məktəblərinin açılmasına çalışırdı.

N. Nərimanov qadınların təhsil almasının, onların ictimai işlərdə fəal iştirakının qızğın tərəfdarı idi. Onun bilavasitə yaxından köməyi ilə təşkil edilmiş qız məktəblərində təhsil alan yüzlərlə azərbaycanlı qız sonralar xalqımızın mədəni inkişafında böyük rol oynamışdır. N. Nərimanov qadınların təhsilə cəlb edilməsinə hər zaman böyük qayğı göstərmişdir. O, bir sıra çıxış və məruzələrində qadınların təhsilə cəlb edilməsini günün vacib məsələlərindən biri kimi irəli sürürdü (2).

Qadın təhsili və azadlığı məsələsi mollanəsrəddinçiləri düşündürən əsas problemlərdən bir olmuşdur. Onlar "Molla Nəsrəddin" jurnalında xalqı cahillikdən, avamlıqdan xilas etmək üçün elmə, maarifə, məktəbə çağırır, qızların oxumasını mühüm bir məsələ hesab edirdi. Azərbaycan qadınlarının savadsız olmalarını "Molla Nəsrəddin" jurnalı çox məharətlə açıb göstərirdi. Qadınlar o dərəcədə avam idilər ki, hətta pulun miqdarını başa düşmürdülər, ən kiçik məbləği hesablaya bilmirdilər.

"Molla Nəsrəddin" jurnalı azərbaycanlı qızların nəinki Azərbaycanda açılan məktəblərdə, həmçinin xarici ölkələrdə ali təhsil almalarını ürəkdən arzulayırdı. Jurnal hər zaman maraqlı yazılar dərc edir, bunun vasitəsilə Şərq aləmini elmə, maarifə səsləyir, avam adət və ənənələrin aradan qaldırılmasını irəli sürürdü.

Qadınların savadsız olmaları Azərbaycanın görkəmli maarifçilərini dərindən düşündürür, narahat edirdi. Onlar elm, maarif və mədəniyyətin tərəqqisində, xalqımızın inkişaf etməsində qadınların böyük rol oynamalarını öz əsərlərində dəfələrlə təsvir etmişlər (1).

Qadın təhsili və azadlığı məsələsinə Cəlil Məmmədquluzadə xüsusi həssaslıqla yanaşırdı. C. Məmmədquluzadə yazdığı məqalə, felyeton və hekayələrdə qadınların ağır vəziyyətini və cəmiyyətdə tutduqları mövqeyi aydın şəkildə əks etdirirdi.

"Dirilik" jurnalında qadın təhsili və azadlığı məsələsi kəskin şəkildə qoyulmuşdu. "Qadın" adlı məqalədə fransa feministlərindən tutmuş Amerika və bütün dünyada qadınların inkişafına və təhsilinə aid məsələlərdən bəhs olunur. Bu məqalədə qeyd olunur ki, "Amalımıza qovuşmaq üçün ciddi və əzmlə çalışmalıyıq. Bu gün qadınların bütün müqəddəratı bizim əlimizdə olduğundan təmbir etmək vəzifəmizdir".

XIX ərin sonu, XX əsrin əvvəllərində Azərbaycan maarifçilərinin qadın təhsili ilə bağlı ideyaları daha da aktual mövzuya çevrildi. Bu dövrdə keçirilən qurultaylarda qadın təhsili və azadlığı məsələsi ciddi müzakirə olunurdu. Azərbaycan maarifçilərinin qadın təhsili sahəsində əməli fəaliyyətləri qısa bir müddətdə öz bəhrəsini vermişdir. Burada Qori Müəllimlər Seminariyasının inspektoru A.O. Çernyayevskinin fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Sonralar onun tələbələri N. Nərimanov, R. Əfəndiyev, S.S. Axundov, C. Məmmədquluzadə, M. Qarayev, Ə. Mustafayev, Ə. Seyidov və başqaları görkəmli pedaqoqun qadın təhsili və azadlığı ilə bağlı ideyalarını daha da inkişaf etdirmiş və praktik olaraq həyata keçirmişdir (2).

Qadın təhsili məsələsindən danışarkən Cavad Cuvarlinskinin böyük rolunu mütləq qeyd etmək lazımdır. O, qadın təhsilinin praktik məsələləri ilə ciddi məşğul olmuşdur.

Azərbaycanda qadın təhsili və azadlığının inkişafında "İşıq" jurnalının xüsusi rolu olmuşdur. "İşıq" jurnalının nəşri və burada qadınların təhsili və azadlığı ilə bağlı verilən yazılar cəhalətpərəstləri qəzəbləndirirdi. Jurnalda verilən yazılar qadınların təhsil almasında, öz hüquqlarını

dərk etməsində mühüm əhəmiyyət kəsb edirdi. Elmin, maarifin, tərbiyənin, təhsilin əhəmiyyətini dərk edən qadınlar təhsil almaq, bu sahədə çalışmaq, xalqa xidmət etmək istəyirdilər. "İşıq" jurnalı belə qadınların yazılarını dərc edərkən mütərəqqi və faydalı iş görürdü. "İşıq" jurnalının fəal müxbirlərindən biri olan Münəvvər xanım Əlixanova yazırdı: "Qadınları cəhalətdən elm, mədəniyyət çıxaracaqdır" (4).

M. Şahtaxtinski, Ə.M. Topçubaşov, Ə. Ağayev kimi görkəmli ziyalılar da maarifi nadanlıqdan qurtarmağın yeganə yolu hesab edirdilər. Onların fikirləri XX əsrin əvvəllərində intibah yaratdı. İlk müsəlman qız məktəbləri meydana gəldi. Azərbaycanda ayrı-ayrı şəxslərin və xeyriyyə cəmiyyətlərinin açdıqları tədris ocaqları maarifin yayılmasında böyük rol oynayırdı. Azərbaycanda "Müqəddəs Nina" kimi xeyriyyə cəmiyyətlərinin qız məktəbləri var idi. Belə ki, "Müqəddəs Nina" qadın xeyriyyə cəmiyyəti 1846 və 1848-ci ildə Şamaxıda qız məktəbi açdı.

XIX əsrdə maarifçilik Azərbaycanın təhsil mədəniyyətinə yeni ideyalar, mövzular gətirdi. Vətənpərvərlik, azadlıq motivləri yeni yaranan əsərlərin mənasını daha da zənginləşdirirdi. Maarifçilik ideyaları yeni ədəbi qüvvələrin meydana çıxmasına səbəb oldu. Maarifçilik hərəkatı Azərbaycanda ziyalı qadınların yetişməsində mühüm rol oynadı.

1901-ci ildə H.Z. Tağıyevin qız məktəbinin fəaliyyətə başlaması Şərqdə çox böyük elmi-mədəni hadisə idi. 1905-ci ildə Bakı və Gəncə quberniyasında xeyli qız təhsil alırdı. XX əsrin əvvəllərində Bakıda bir neçə xüsusi qız məktəbi fəaliyyət göstərirdi (1).

Mirzə Cəlilin maarifçi - pedaqoji görüşlərində qadın təhsili və tərbiyəsi haqqında məsələlər xüsusi yer tutur. Yuxarıda qeyd etdiyimiz kimi, qızlarımızın təhsilə cəlb edilməsinə aid ilk təcrübələrdən biri məhz onun adı ilə bağlıdır. Böyük yazıçı - publisist cəmiyyət həyatında maarifin yayılmasını, işıqlı sabahların açılmasını bilavasitə qızların düzgün təhsil - tərbiyəsi ilə əlaqələndirirdi. Xüsusi qeyd edirdi ki, uşağın yüksək tərbiyəvi keyfiyyətlərə malik olmasında yaxşı təhsil görmüş qadın - ananın rolu böyükdür. Azərbaycanlı qızların təhsilə cəlb edilməsi, avam, hüquqsuz vəziyyətdən xilas olması böyük mütəfəkkiri həmişə düşündürən məsələ olmuşdur. O, bir pedaqoq kimi oğlanlarla yanaşı, qızlarımızın da təhsil almaq arzularını, biliklərə yiyələnmək, zəngin mənəvi keyfiyyətlərə malik olmaq kimi hisslərini çox gözəl duyur və bu cəhəti öz ədəbi - publisist əsərlərində yüksək səviyyədə təsvir edirdi (3).

Maarifçilik dövründə Azərbaycan maarifpərvərləri qadın təhsili və azadlığı uğrunda mübarizələrini inadla davam etdirirdilər. Azərbaycan Demokratik Respublikası dövründə onların istək və arzuları qismən reallaşdı. Nəinki qadınların təhsilə cəlb edilməsi sahəsində ciddi işlər görüldü, həmçinin onlara Parlamentdə seçmək və seçilmək hüququ verildi. Sovet hakimiyyəti illərində isə qadınlar cəmiyyətin bərabərhüquqlu üzvü kimi nəinki təhsil aldılar, həm də dövlətin idarə olunmasında yaxından iştirak etdilər (4).

**Problemin aktuallığı.** Bu məqalənin aktuallığı ondan ibarətdir ki, qadın təhsili və tərbiyəsi hər zaman bütün dövrlər üçün aktual olaraq qalacaqdır. Maarifçilik hərəkatı Azərbaycanda ziyalı qadınların yetişməsində mühüm rol oynadı.

**Problemin elmi yeniliyi.** Maarifçilik dövründə XX əsrin tərəqqipərvər ziyalıları "Kaspi", "Şərqi-Rus", "Həyat", "İrşad", "Açıq söz", "Molla Nəsrəddin", "Dəbistan", "Füyuzat", kimi qəzet və jurnallarda Azərbaycan qadınlarının təhsili və azadlığı ilə bağlı müxtəlif yazılar dərc etdirmişlər. Elmi məqalədə həmin jurnallardakı qadın təhsili ilə bağlı fikirlər tədqiqata cəlb olunmuşdur.

**Problemin tətbiqi əhəmiyyəti.** Qadın təhsili ilə bağlı fikirlər, maarifçilik ideyaları bir çox elmi tədqiqatların yazılmasında istifadə oluna bilər.

## Ədəbiyyat:

1. Gəncəli S.S. Azərbaycanın maarifpərvər qadınları // Azərbaycan məktəbi, 1982, № 3
2. Azərbaycan qadını. B.: Azərbaycan Ensiklopediyası nəşriyyat-Poliqrafiya Birliyi, 2002.
3. Azərbaycan tarixi ən qədim zamanlardan XX əsrə qədər: Ali məktəblər üçün dərslik, I cild / Ə.M. Bünyadzadə və Y.B. Yusifovun redaktorluğu ilə. Bakı: Azərbaycan dövlət nəşriyyatı, 2010.

**E-mail**: nubar2017@list.ru
**Rəyçilər:** *ped.ü.fəls.dok., dos.* **H. Cəfərov**,
*ped.ü.fəls.dok.* **K.R. Quliyeva**
**Redaksiyaya daxil olub:10.10.2018**